# Ziyanlı

*hekayə*



Vahid MƏHƏRRƏMOV

Sakit bir yaz səhəri gözlərini yer üzünə yenicə açırdı. Sübhün gəlişini hiss edən qaranlıq öz şələsini ağır-ağır çəkib gözdən uzaqlara aparırdı. Dəqiqələr ötdükcə dünya işığa boyanırdı. Gecənin şirin yuxusundan yenicə qalxan insanlar gözlərini ovuşdura-ovuşdura al şəfəqli səhəri salamlayırdılar. İtlər hürüşür, xoruzlar ara-sıra banlaşırdı.

Belə gözəl bir yaz səhərində biçənəyin ayağına çatan Qəşəm kişi "Ya Allah", - deyib qolunu çırmayıb işə başladı. Biçilmiş otdan ürəyəyatan qoxu gəlirdi. Dəryazın ağzından ətrafa eyni ritmlə səs yayılırdı. Dayanmadan işlədiyindən Qəşəm kişinin qolları tez yoruldu. Gilas ağacının altında düzəltdiyi skamyada oturub bir hovur dincini aldı. Əl-ayağını yığışdırıb göy üzünə çıxmağa tələsən Günəş yavaş-yavaş üfüqü al rəngə boyayırdı. Bir azdan onun isti şəfəqləri hər yerə yayılacaqdı. Yorğunluğunu alandan sonra Qəşəm kişi yenə də dəryazın sapından möhkəmcə yapışıb ot biçməyə başladı.

...Qəşəm kişi dörd övlad atasıydı. Üç qızdan sonra Tanrı ona bir oğul payı da vermişdi. Qızların ikisini köçürtmüşdü. İndi evdə qızı Səkinə qalmışdı. Oğlu Rauf hələ orta məktəbdə oxuyurdu. Uşaq bir az zəif olduğundan Qəşəm kişi onu çox işgücə buyurmağa qıymırdı. Ağır işləri özü görürdü ki, oğlu çətinə düşməsin. Fikirləşirdi ki, hələ tezdir, qoy sümükləri bir az bərkisin.

Belə götürəndə Qəşəm kişi bəxtsiz adam idi. İndiyə qədər hara addım atmışdısa, uğur üzünə gülməmişdi. Ailədə tək uşaq olan Qəşəm hələ kiçik yaşlarından atasını itirib yetim qalmışdı. Anası Əfruz onu bir qarnı ac, bir qarnı tox böyütmüşdü. Həmişə ondan-bundan eşidirdi ki, yetimin bəxti olmur. Uşaq olanda deyilənlərə o qədər də inanmırdı. Yaşa dolduqca, başına gələn ziyanlıqların əziyyətini çəkdikcə yavaş-yavaş eşitdiklərinin yalan olmadığını gördü. Çünki hansı işin qulpundan yapışırdısa, mütləq bir əmması çıxırdı. Ziyanlıq, ziyanlıq dalınca gəlirdi. Birinin "zibilindən" qurtarmamış, o birisinə düşürdü. Neçə illər keçsə də, ilk dəfə ailə qurduğu Səfurədən övladı olmadı. Nə qədər həkimlərə üz tutub, dava-dərmana ətək-ətək pul töksələr də, arzuları çiçək açmadı. Həkim qırmızıca demişdi ki, uşağın olmaması Səfurədəndir. O yazıq da bu sözü eşidəndən sonra nə üzü gülmüş, nə də ürəyi açılmışdı. Qəşəm kişinin Səfurə ilə yollarını ayırmaq niyyəti yox idi. Çünki onu sevib almışdı. Həm bir az uzaq qohumluqları çatırdı, həm də o da yetim idi. Əgər boşasaydı, qadın ağlaya-ağlaya xəstə anasının üstünə qayıdacaqdı. Həyat yoldaşının könlünü alıb ovutmaq üçün həmişə ona təskinlik verər "Ay Səfurə, fikir eləmə, təki canımız sağ olsun. Həkimin dediyinə çox da inanma, hər şey Allahın əlindədir - verən də, alan da o kişidir!" - deyərdi.

Günlərin birində Səfurə nə fikirləşdisə pal-paltarlarını yığıb həyat yoldaşına dedi: "Qəşəm, sən xoşbəxt ol, mən sənin yolunu kəsmək istəmirəm. Anan Əfruz arvad səni böyüdənəcən kiprikləri ilə od götürüb. Baxıram ki, uşaq məsələsinə görə o da dərd çəkir, fikir eliyir, hərdən oturub xəlvət-xəlvət ağlayır. Mən onu qınamıram, yazıq arvad nəvə-nəticə görmək, onları qucağına alıb oynatmaq istəyir. Sən başqası ilə evlən, qoy uşaqların olsun, Əfruz xalanın qaş-qabağı açılsın. Görünür, mənim taleyim belə yazılıb." Qəşəm kişi nə qədər dil töksə də, Səfurəni fikrindən döndərə bilmədi. Əfruz arvad da onun qabağını kəsib saxlamaq istədi. Amma Səfurə sözünün üstündə möhkəm dayandı.

Qəşəm kişi həyat yoldaşını gətirmək üçün qapılarına çox ayaq döysə də, xeyri olmadı. "Səni xoşbəxt görmək istəyirəm. Mən səni bədbəxt eliyə bilmərəm. Get, başqası ilə ailə qur, övladın olsun", - dedi. Bu sözlərdən sonra Qəşəm kişi Səfurədən əlini birdəfəlik üzüb altdan-altdan özünə həyat yoldaşı axtarmağa başladı. Üç aydan sonra Gülşən adlı qızla evləndi. Bu dəfə ailəsi uğurlu oldu. Bir ildən sonra evindən körpə qığıltısı eşidildi.

Səfurə də ata evində çox oturmadı. Altı aydan sonra həyat yoldaşını itirmiş və neçə ildən bəri bir uşaqla dörd divar arasında tək qalmış Rəhmanla ailə qurdu. Həkimlərin qoyduğu diaqnoz yalan çıxdı. Çünki ərə gedəndən düz doqquz ay sonra onun da uşağı oldu. Bunu eşidəndə Qəşəm kişinin bir gözü güldü, bir gözü ağladı. Həkimlərin qarasınca xeyli söyləndi.

Səhər-səhər biçənəkdə dərin xəyala getmiş Qəşəm kişi indiyə kimi müxtəlif işlərdə çalışmışdı. Bir il pambıq briqadiri olmuşdu. Heç onda da bəxti gətirməmişdi. Günlərin birində gözlənilmədən pambıq qurudulan məntəqədə yanğın baş vermişdi. Camaat tökülüşüb yanğını söndürməyə çalışsa da, heç nə alınmamışdı. Tonlarla pambıq yarım saatın içində yanıb kül olmuşdu. Qəşəm kişinin bəxti bircə onda gətirmişdi ki, həmin gün o rayonda iclasda olmuşdu. Buna görə də onu çox sorğu-suala çəkmədilər, yalnız cərimələyib, briqadirlikdən çıxarmaqla kifayətləndilər. Hələ nə yaxşı ki, hadisə baş verən gün Qəşəm kişi orada olmamışdı. Yoxsa hökumətin qorxusundan özünü pambığın içinə atıb yandırardı.

Briqadirlik vəzifəsi böyük ziyanlıqla başa çatandan sonra bir müddət kolxozda fəhlə işlədi. Bacarıqlı, vicdanlı adam olduğunu nəzərə alan sədr onu irəli çəkib ferma müdiri qoydu. Qəşəm kişinin təzə vəzifəsi evdə uşaqdan tutmuş böyüyə kimi hamını sevindirdi. Həyat yoldaşı Gülşən, anası Əfruz, həmçinin uşaqları bir müddətdən sonra yağ-qaymaq içində üzəcəklərini, doyunca ət yeyəcəklərini zənn etdilər. Onlar belə gözəl fikirlərə düşməkdə haqlı idilər. Çünki ona qədər ferma müdiri işləyənlər bu vəzifənin hesabına xeyli varlanmışdılar. Özlərinə ev tikmiş, bağ-bağça salmış, maşın almışdılar. Övladlarını oxutmuş, el-obada hörmət-izzət qazanmışdılar.



Onu yaxından tanıyan qohum-əqrəba, dost-tanış isə Qəşəm kişiyə məsləhət verib dedilər: "Sən gəl, bu vəzifəyə getmə. Çünki sən təmiz və fağır bir adamsan, ferma müdiri sənlik deyil. Bu vəzifədə oturanın gərək əlli dili, yüz sifəti olsun. Həm işçilərlə, həm də çoban-çoluqla dil tapıb yola getsin. Yeri gələndə gərək özü də bir az əliəyri olsun, əliəyri olanlara da göz yumsun. Hərdən yalan danışsın, hərdən də yalan danışanlara inansın. Hər gün bir yığın saxta sənədlərə əvvəl özü qol çəksin, sonra da onları aparıb yaltaqlana-yaltaqlana sədrə imzalatdırıb möhürlətsin. Səndə isə bu sifətlərin heç biri yoxdur. Ona görə də sən müdir vəzifəsində işləyə bilməyəcəksən, bu daşı ətəyindən tök. Ferma sənlik deyil, oradakı köhnə qurdlar sənə göz açmağa, əl-qol atmağa imkan verməyəcəklər. Sonra ziyana düşüb əziyyət çəkəcəksən."

Qəşəm kişi ziyanlıqdan qorxsa da, yaxınlarının dediklərinə məhəl qoymadı. Hələ özlüyündə fikirləşdi ki, yəqin bu vəzifəyə getdiyinə görə onlar xainlik edir, yetimi gözləri götürmür. Ağıllı məsləhətlərə qulaq asmayan Qəşəm kişi həvəslə ferma müdiriliyinə başladı. İlk gündən hər yerdə düzlüyün bayrağını qaldırdı. Nə özü evinə süd-qaymaq, ət-yağ gətirdi, nə də heç kimə kolxozun malına əl uzatmağa imkan verdi. Yavaş-yavaş fermada işləyənlərin ürəyində Qəşəm kişiyə qarşı kin yaranmağa başladı. Axı, belə iş ola bilməzdi, onlar hər gün fermadan süd, qaymaq, ət oğurlayıb aparırdılar. Bəs indi neyləsinlər, necə dolansınlar? Həmişə çobanlar baytarlarla əl-ələ verib xəstəlik adı ilə sağlam heyvanları kəsib bör-bölüş eliyirdilər. Təzə müdir fermaya ayaq qoyandan bəri çobanların, baytarların dillərinə ət dəyməmişdi. Vəziyyət belə davam edə bilməzdi. Onların ət üçün mədələri göynəyir, qarınları quruldayır, ağızları sulanırdı. Hansı yolla olursa-olsun bu işə əncam çəkmək istəyirdilər. Ya təzə müdiri şirnikləndirib əyri yola çəkməli, ya da başqa bir şey fikirləşib onu aradan götürməli idilər.

Əvvəllər həvəslə fermaya maşın sürən sürücülər də daha bura gəlməkdən boyun qaçırırdılar. Qəşəm kişi kolxozun mal-heyvanını, mülkünü göz bəbəyi kimi qoruyurdu. Nə özü yeyir, nə də heç kimi yaxına buraxmırdı. Həmişə ətə, südə, qaymağa öyrəşmiş ferma işçilərinin isə əlləri işdən soyumuşdu. Günlərin birində sürüdən yavaş-yavaş qoyun-quzu yoxa çıxmağa başladı. Ferma müdiri qoyunların necə olduğunu, harada itdiyini soruşanda isə çobanlar sürülərə canavarların dadandığını dedilər.

Bir müddətdən sonra isə sürülərə xəstəlik düşdü. Ha dava-dərman eləsələr də, xeyri olmadı. Qəşəm kişi günlərlə evə gəlmir, çobanlarla bir yerdə fermada yatıb qoyun-quzunun qayğısına qalırdı. Amma bu da bir nəticə vermədi. Qarışıqlıqdan istifadə edən çobanlar imkan düşdükcə sağlam qoyunları çırpışdırıb dəyər-dəyməzinə satırdılar. Sürülərə xəstəlik düşməsi rayon rəhbərliyinə qədər gedib çıxdı. Komissiya, komissiyanın arxasınca gəlib fermanı - Qəşəm kişinin işlərini yoxladı. Müstəntiqlər, polislər fermanı su yoluna döndərmişdilər. Qəşəm kişinin sorğu-suallara cavab verməkdən dili, izahat və protokollara imza atmaqdan barmaqları yorulmuşdu.

Rayondan gələn komissiyanın yoxlamaşından sonra məlum oldu ki, sürüdə yüzdən çox qoyun çatışmır. Əgər qoyunlar xəstəlikdən ölmüşdülərsə, onda ortalıqda dəriləri qalmalıydı. Yox, əgər ölməmişdilərsə o biri qoyunlar kimi sürünün içində olmalıydılar. Deməli, ortalıqda oğurluq edənlər, kolxozun malına əl uzadanlar var idi. Bu işə cavabdeh olan adamların hamısı "çullarını sudan dupduru çıxartdılar." Sonra da köməkləşib bütün günahları Qəşəm kişinin boynuna yıxdılar, onu itələyib bulanıq suyun içinə saldılar.

İşlər yenə də korlandı, ara qarışdı. Az qaldı ki, Qəşəm kişini ətini dadmadığı, üzünü görmədiyi qoyunlara görə tutub dama salsınlar. Amma onun saf və fağır bir adam olduğunu görüb son anda həbs eləmədilər. Şərt qoydular ki, əgər bir həftə ərzində yoxa çıxmış heyvanların sayı qədər ya diri qoyun, ya da heç olmasa dəriləri tapılıb yerinə qoyulsa, onu həbs etməzlər. Qəşəm kişi qapısında olan beş-on baş qoyun-quzunu da, bir vaxtlar kəsdiklərinin dərilərini də gətirib kolxoza təhvil verdi. Amma bununla iş düzəlmədi, yara sağalmadı. Bir vaxtlar ona ferma müdiri olmamağı məsləhət görən qohumlar, oğlu vəzifəyə keçəndən sonra yağ-qaymaq içində üzəcəyini fikirləşən Əfruz arvad qapı-qapı düşüb camaata yalvardılar ki, Qəşəmin türməyə düşməsinə razı olmasınlar. Yenə Allah el-obaya versin. Kənd adamlarının Əfruz ananın göz yaşlarına, qohumların yalvarışlarına, Qəşəmin yetimliyinə rəhmi gəlib kömək elədilər. Kimi qoyun, kimi keçi, kimi də ən azı quruca bir dəri verdi. Camaatın köməkliyi sayəsində ferma müdiri türmədən xilas oldu.

Qəşəm kişi iş görə-görə ötən illərdə başına gələnləri ardıcıllıqla düzüb fikrindən keçirirdi. Düşdüyü ziyanlıqlardan sonra həyatından gileylənib şikayət etmir, "Allahın yazdığı qismətdir, neynəmək olar?", - deyib özünə təskinlik verirdi. O cür ağır işlərdən, xüsusilə traktor qəzasından sağ çıxdığına görə həmişə Tanrıya şükür edirdi. Bir neçə dəfə gilas ağacının kölgəsindəki skamyada oturub dincini alan Qəşəm kişi gün çox isinməmiş otu biçib qurtardı. Hər şey ziyansız-filansız ötüşdüyündən Qəşəm kişi Allaha şükür edib evə sevincək qayıdırdı. Amma səhər-səhər işinin üstünə birinci o mərdimazar keçəl Qulamın gəlib çıxması yadına düşəndə ovqatı təlx olurdu.

Gündüz hava günəşli olsa da, axşama yaxın göy üzünə ağlı-qaralı buludlar axışdı. Şimşək çaxdı, göy guruldadı, hava qarışdı. Gecə yarıdan keçmiş yağış yağdı. Gurultu səsinə oyanan Qəşəm kişi pəncərədən çölə baxıb havanı buludlu görəndə kefi pozuldu. Çünki otun üstünə yağış düşəndə qaralıb zay olurdu. Amma təzə biçilmiş ot üçün bu, elə də qorxulu deyildi. Əgər yağış sabah-birisigün yağsaydı, bəlkə də pis olardı. Bununla özünə təskinlik verən Qəşəm kişi qayıdıb yerinə uzandı.

Ertəsi gün həm səhər, həm də axşam yağış yağdı. Sanki hava Qəşəm kişi ilə siçan-pişik oynayırdı. Nə yağan kimi yağır, nə də kəsən kimi kəsirdi. Hər gün bir az çiskinləyib dayanırdı. Yağış dəydikcə biçilmiş yamyaşıl ot yavaş-yavaş qaralırdı. Nəhayət, iki gün hava isti keçdi, ot qurudu. Onu bağlayıb götürmək olardı. Axşamın sərinliyi düşən kimi Qəşəm kişi yabasını çiyninə qoyub bağa getdi. Bir az rəngi qaralmış otu xırda-xırda layladı ki, sabah rahatca xorumlayıb bağlasın.

Axşam yerinə tez girdi ki, səhər vaxtlı qalxa bilsin. Gecənin bir aləmində nərilti-gurultu səsinə oyandı. Pəncərədən çölə baxanda gördü ki, şıdırğı yağış yağır. Yenə də şimşək göylərdə "at oynadıb", qaranlığa işıq saçırdı. Belə havada çətin ki, biçənəkdəki otu bağlaya biləydi. Səhər açılan kimi yağış kəsdi, gün çıxdı, hava isindi. Qəşəm kişi çörəyini yeyəndən sonra yabasını götürüb bağa getdi. Layları bir az seyrəltdi ki, axşama qədər təpisin. Gün əyiləndə isə gəlib dağıtdığı otu təzədən layladı. Gecəyarı Qəşəm kişi yenə də göy gurultusuna yuxudan oyanıb könülsüz-könülsüz pəncərənin qarşısına gəldi. Güclü yağışdan həyət-bacada xırda gölməçələr əmələ gəlmişdi.

Hava isinən kimi Qəşəm kişi bağa getdi. Üstünə düşən yağışdan otun rəngi qapqara olmuşdu. Yenə də layları bir az seyrəltdi ki, axşama qədər qurusun, yağış yağmasa gəlib sabah bağlayıb götürsün. Axşam yenə də yağış yağdı. Sabah bağa gəlib otun rəngini görəndə daha ondan əlini üzdü. Əziyyətlə biçdiyi ot elə rəngə düşmüşdü ki, heç eşşəyin də qabağına atsaydın yeməzdi.

Fikirləşdi ki, zay olmuş otu bağlayıb aparmaqdansa, elə biçənəkdəcə yandırsın. Yağışdan qaralmış otu bir yerə yığandan sonra kibriti çəkib ona od vurdu. Hirslə "Di yan, toxta, təki elə ziyanlıq bununla qurtarsın" - dedi. Qaralmış otun tüstüsü bağın hər tərəfinə yayılıb burum-burum yuxarı qalxırdı.

Yanan ot artıq sönmək üzrə idi. Bu vaxt bağın yuxarısından qızı Səkinənin onu çağıra-çağıra yanına qaçdığını gördü. Qızı görən kimi ürəyinə damdı ki, yəqin yenə də evdə nə isə bir ziyanlıq var.

Tez onu qabaqlayıb soruşdu:

- Az bala, Səkinə, niyə belə qışqırıf bağırdalaq olmusan? Nə oluf, bir hadisəzad baş verif?

- Ata, ata, ay ata, yenə də ziyanlıq oluf e-ee. Bu gün nobata gedən İsmayıl dayı uşaxlardan sifariş göndərif ki, Qəşəm kişiyə deyin inəyi su içəndə ayağı sürüşüf kanala düşüf. Onu oradan çıxarmax üçün köməyə adam gətirsin. Əgər gecihsə heyvan boğuluf murdar olacax.

Qəşəm kişi eşitdiyi bu xəbərdən dəli oldu. Ziyanlığın birinin tüstüsü çəkilməmiş o birisinə düşmüşdü. "Bala, təki Allah axırın xeyir eləsin. Sən narahat olma, evə qayıt, mən görüm kömək üçün kimi tapıram." - deyib üzü kövşənə - kəndin örüş yerinə tərəf qaçdı...